Mərasimi məktəbin direktoru Afət Bakıxanova açıb. Sonra məktəbin tədris işləri üzrə direktor müavini Qənirə Əmircanova xalq şairinin yaradıcılığından nümunələr təqdim edib. Ədəbi-bədii gecədə şairin şeirləri və tarixi poemaları üzrə səhnələşdirilmiş kiçik parçalar yüksək məharətlə ifa olunub, sözlərinə bəstələnmiş mahnılar dinlənilib.

Tədbirdə iştirak edən Təhsil Nazirliyinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və Səbail Rayon İcra Hakimiyyətinin nümayəndələri, ziyalılar, orta məktəb rəhbərləri xalq şairinin yaradıcılığından söz açıb, yubilyara ən xoş arzularını çatdırıblar.